**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# PEDAQOJİ ÜNSİYYƏT MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN ŞƏXSİYYƏTİNİN FORMALAŞMASININ MÜHÜM AMİLİ KİMİ

| | |
|---|---|
| İxtisas: | 5804. 01 - Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi |
| Elm sahəsi: | Pedaqogika |
| İddiaçı: | **Pərvanə İldırım qızı İmanova** |

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiya işinin

**AVTOREFERATI**

**Bakı – 2023**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təhsilin pedaqogikası kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: pedaqogika elmləri doktoru, professor
**Müseyib İbrahim oğlu İlyasov**

Rəsmi opponentlər: pedaqogika elmləri doktoru, dosent
**Tamilla Əhməd qızı Vahabova**

pedaqogika elmləri doktoru, professor
**Hümeyir Hüseyn oğlu Əhmədov**

pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Nigar Eldar qızı Zeynalova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya Şurası

Dissertasiya Şurasının sədri: tarix elmləri doktoru, professor
____________________ **Cəfər Məmməd oğlu Cəfərov**

Dissertasiya Şurasının elmi katibi: pedaqogika üzrə fəlsəfə doktoru, dosent
____________________ **Mələk Əlislam qızı Zamanova**

Elmi seminarın sədri: pedaqoji elmlər doktoru, professor
Əməkdar elm xadimi
____________________ **Fərrux Abbas oğlu Rüstəmov**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dövr Azərbaycan təhsil sisteminin bütün pillə və səviyyələrində yetişməkdə olan gənc nəslin şəxsiyyət kimi formalaşdırılmasını əsas vəzifələrdən biri kimi qarşıya qoymuşdur. Təhsilin ilk pilləsi olan məktəbəqədər təhsilin üzərinə bu baxımdan böyük vəzifələr və məsuliyyət düşür.

Ölkəmizdə məktəbəqədər təhsil sistemi daha da genişlənir və inkişaf edir, məktəbəqədər təhsilin formaları, məzmunu getdikcə zənginləşir. Ölkə rəhbərliyinin, respublikamızın prezidenti cənabİlham Əliyevin və birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu sahəyə diqqət və qayğı göstərmələri bu prosesi daha da intensivləşdirir.

Cəmiyyətdə gedən dəyişikliklər, inkişaf etmiş dünya ölkələrinə inteqrasiya müasir məktəbəqədər təhsilin qarşısında yeni tələblər qoyur. Uşaqlarda hələ kiçik yaşlarından ünsiyyət mədəniyyətinin tərbiyə edilməsivə ünsiyyət vərdişlərinin formalaşdırılması bu qlobal əhəmiyyətli vəzifələrin reallaşdırılmasında başlıca yerlərdən birini tutur.

Şəxsiyyətin formalaşdırılmasında məktəbəqədər yaş dövrünün rolu böyükdür. Bu dövr uşaqların sonrakı inkişafında əsas baza rolu oynayır. Bilik, bacarıq və vərdişlərin əldə edilməsi, müxtəlif növ fəaliyyətin mənimsənilməsinin əsası da məhz bu dövrdən başlayır və uşağın sonrakı ümumi inkişafını təmin edir.

Məktəbəqədər yaş dövrü uşaqların hərtərəfli (əqli, psixi, fiziki və s.) inkişafının təmin edilməsinin,uşaqlardafəal sosial münasibətlərin, böyüklər və yaşıdları ilə ünsiyyətin inkişafı, mənəvi və estetik hisslərinin oyanması dövrüdür. Bu baxımdan uşaqların gələcək inkişafı, vətəni, xalqı üçün faydalı şəxs kimi formalaşdırılması məktəbəqədər təhsil müəssisələrində çalışan tərbiyəçi-müəllimlərin gərgin əməyindən, hər bir uşağa şəxsiyyət olaraq yanaşmasından çox asılıdır. Tərbiyəçi-müəllimin özünün yüksək kommunikativ bacarıqlara, ünsiyyətə malik olması bu prosesdə olduqca mühüm əhəmiyyətə malikdir.

Pedaqoji ünsiyyət uşaq şəxsiyyətin formalaşması dövründə tərbiyə vasitəsi kimi çıxış edir. Elə buna görə də tərbiyəçi-müəllimin pedaqoji ünsiyyəti həm tərbiyə vasitəsi, həm uşaqların sosiallaşmasına

müsbət təsir edən pedaqoji təsir aləti, həm də uşaq şəxsiyyətinin formalaşdırılmasını təmin edən amillərdən birini təşkil edir.

Apardığımız tədqiqat işinin nəticəsi göstərir ki, tərbiyəçi-müəllimin yüksək ünsiyyət mədəniyyətinə malik olması, uşaqlarla səmimi, mehriban, demokratik ünsiyyət normaları çərçivəsində münasibəti uşaq şəxsiyyətinin inkişafında mühüm vasitələrdən biri kimi çıxış edir. Buna görə də məktəbəqədər təhsil müəssisələrində qarşıda duran əsas vəzifələrdən biri tərbiyəçi-müəllimin təlim-tərbiyə prosesində uşaqlarla ünsiyyətinin demokratik yönümdə, subyekt-subyekt münasibətləri üzərində qurulmasına nail olmaqdan ibarətdir. Ünsiyyətin bu cür qurulması inkişaf etmiş şəxsiyyətin formalaşması üçün şərait yaradılmasına əlverişli surətdə təsir etmiş olur.

Məktəbəqədərtəhsil sahəsində baş verən dəyişikliklər uşaqlarda sosial fəallığı formalaşdırmaq, baş verən dəyişikliklərə hazır olmaq və yeni şəraitdə özünütənzimləmə, özünütəyinetmə, özünütəsdiq kimi xüsusiyyətləri formalaşdırmağı özündə əks etdirən şəxsiyyətlər tərbiyə etməyi tələb edir. Burada tərbiyəçi-uşaq əməkdaşlığı, tərbiyəçi-müəllimlərin demokratik ünsiyyət tərzlərinə malik olmaları olduqca önəmli amilə çevrilir.

Böyüməkdə olan uşaqlara edilən pedaqoji təsirlər onlarda bir sıra müsbət mənəvi keyfiyyətləri formalaşdırmaqla yanaşı, yaşıdları ilə qarşılıqlı münasibətlərdə fəallığa, fərdiliyin üzə çıxmasına, uşaqların özünüdərk keyfiyyətlərinin inkişafına da əsaslı təsir göstərir. Tərbiyəçi-müəllimin kommunikativ bacarıqları nəticəsində uşaqların öz şəxsi keyfiyyətlərini, potensial imkanlarını reallaşdıra bilmək imkanları artır, onlarda özünütəsdiq,özünüinkişaf motivləri inkişaf edir. Bütün bunlar nəticə etibarilə şəxsiyyətin formalaşması və inkişafına gətirib çıxarır ki, bu da məktəbəqədər təhsil müəssisələrində tərbiyəçi-müəllimlərin yüksək kommunikativ bacarıqlara malik olmasını zəruri edir. Bunu real həyat təcrübəsi və aparılan bir sıra tədqiqatlar da təsdiq edir.

Klassik pedaqoqlar İ.H.Pestalotsi, K.D.Uşinski, L.N.Tolstoy, Azərbaycan maarifçi pedaqoqlarından M.F.Axundov, H.B.Zərdabi, A.A.Bakıxanov, F.B.Köçərli, R.B.Əfəndiyev, S.M.Qənizadə və b. öz əsərlərində müəllim-şagird, tərbiyəçi-uşaq arasındakı münasibətlərin, əməkdaşlığın, ünsiyyətin roluna yüksək qiymət vermişlər.

Rus psixoloqları (L.İ.Bojoviç, L.S.Vıqotski, Y.L.Kolominski, A.N.Leontyev, A.V.Petrovski, S.L.Rubinşteyn və b.), Azərbaycan psixoloqları (Ə.Ə.Qədirov, Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, R.İ.Əliyev, M.Ə.Həmzəyev, S.İ.Seyidov və b.) öz tədqiqatlarında bu problemə xüsusi diqqət göstərmiş və problemin ümumnəzəri cəhətlərinə dair qiymətli fikirlər söyləmişlər. Bir sıra Azərbaycan pedaqoqoqlarının (M.M.Mehdizadə, M.Ə.Muradxanov, Ə.Ş.Həşimov, Y.R.Talıbov, Ə.A.Ağayev, F.A.Rüstəmov, M.İ.İlyasov, A.A.Abbasov və b.) apardıqları tədqiqatlarda şəxsiyyət, onun formalaşmasının pedaqoji-psixoloji problemləri, şəxsiyyətin formalaşdırılmasında müəllim-şagird münasibətlərinin rolu və s. məsələləri araşdırılmış və maraqlı nəticələr əldə edilmişdir.

Rus alimlərindən L.S.Slavina, A.V.Zaporojes, D.B.Elkonin, E.Y.Lukaş, E.O.Smirnova, D.İ.Feldşteyn, Kan-Kalik və b. bilavasitə kommunikativ münasibətlərə dair maraqlı araşdırmalar aparmışlar.

L.S.Vıqotski, A.N.Leontyev, A.V.Petrovski, S.L.Rubinşteynin, o cümlədən bir sıra Qərb alimlərinin əsərlərində belə bir fikir özünə möhkəm yer tutmuşdur ki, şəxsiyyətin inkişafının əsası və onun hərəkətverici qüvvəsi qismində birgə fəaliyyət və ünsiyyət çıxış edir. Onların vasitəsilə şəxsiyyətin insan dünyasında hərəkəti və onun dünya mədəniyyətinə uyğunlaşması baş verir.

Araşdırmalarımız göstərir ki, istər bizim respublikamızda, istərsə də yaxın və uzaq xarici ölkələrdə məktəbəqədər yaşlı uşaqların təlim-tərbiyə fəaliyyəti, onların şəxsiyyətinin inkişafı sahəsində çoxlu sayda tədqiqatlar aparılmışdır. Respublikamızda Ş.Q.Əliyeva, R.N.Mursaqulova, N.M.Rüstəmova, Ş.A.Baxışova, S.M.Sadıqova, L.K.Cəfərova, P.M.Həsənova, İ.N.Məmmədova, Ç.V.Veysəlova, Y.X.Məmmədova tədqiqat obyekti olaraq bilavasitə məktəbəqədər yaşlı uşaqlarla aparılan təlim-tərbiyə prosesini götürmüş, bu sahədə maraqlı nəticələr əldə etmiş və respublikamızda məktəbəqədər təhsilin nəzəri və praktik inkişafına öz töhfələrini vermişlər.

Bir sıra tədqiqatçılar isə uşaq şəxsiyyətinin inkişafı və formalaşdırılması, bu prosesdə ünsiyyətin rolu məsələlərinə bilavasitə toxunmuşlar. Bu baxımdan Ə.Ə.Ağayevin "Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi" (1996), Ə.Ç.Sarıyevin "Müəllim-şagird münasibətlərinin yuxarı sinif şagirdlərinin əxlaq tər-

biyəsində rolu" (1987), X.C.İbrahimovun "Ünsiyyət mədəniyyəti və şagird kollektivində onun formalaşması yolları" (1992), M.İ.İlyasovun "Müəllimin pedaqoji ustalığı" (2013), Ş.Q.Əliyevanın "Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsi" (2018) və s. əsərlərini qeyd etmək olar. Lakin təcrübə göstərir ki, məktəbəqədər yaşlı uşaqların tərbiyəsi və inkişafı üzrə bir sıra tədqiqatlar aparılsa da, tərbiyəçi-müəllimin uşaqlarla ünsiyyəti, məktəbəqədər dövrdə uşaqların şəxsiyyətinin formalaşmasında pedaqoji ünsiyyətin rolu problemi dissertasiya səviyyəsində tədqiq edilməmişdir. Problemin bu cəhətini nəzərə alaraq tədqiqatı bu sahəyə həsr etməyi məqsədəuyğun hesab etmişik.

Tədqiqatın **obyektini** məktəbəqədər yaşlı uşaqların təhsil fəaliyyəti, mənəvi tərbiyəsi və mədəni cəhətdənşəxsiyyət kimi formalaşdırılması prosesi, **predmetini** isə uşaq şəxsiyyətinin formalaşdırılmasında pedaqoji ünsiyyətin rolu və onun inkişaf etdirilməsi prosesi təşkil edir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın **məqsədini**-məktəbəqədər təhsidə pedaqoji ünsiyyətin yeri, rolu və təsir imkanlarının müəyyənləşdirilməsi; uşaq şəxsiyyətinin formalaşmasında pedaqoji ünsiyyətin təsirini meydana çıxaran pozitiv təzahürlərin öyrənilməsi; pedaqoji ünsiyyətin formalaşmasının imkan və yollarının aşkara çıxarılması; pedaqoji ünsiyyətin müsbət təsirindən istifadə edərək məktəbəqədər yaşlı uşaqlarla aparılan təlim-tərbiyə işinin səmərəliliyinin yüksəldilməsi yollarının müəyyənləşdirilməsi; məktəbəqədər təhsildə tərbiyəçi-uşaq ünsiyyətinin mahiyyət və məzmununun müəyyənləşdirilməsi, **vəzifələrini** isə problem üzrə məktəbəqədər təhsil müəssisələrinin təcrübəsinin öyrənilməsi; məktəbəqədər təhsildə pedaqoji ünsiyyətə verilən tələblərin müəyyənləşdirilməsi; pedaqoji ünsiyyət prosesində məktəbəqədər yaşlı uşaqların şəxsiyyətinin formalaşdırılmasının imkan və yollarının sistemləşdirilməsi; təlim-tərbiyə prosesinin sosial-psixoloji cəhətdən təmin olunmasında tərbiyəçi-uşaq ünsiyyətinin rolu, əhəmiyyəti və təşkili yollarının müəyyənləşdirilməsi təşkil edir.

**Tədqiqat metodları.** Tədqiqat zamanı aşağıdakı metodlardan istifadə edilmişdir: 1) nəzəri təhlil; 2) məktəbəqədər təhsil müəssisələrinin təcrübəsinin öyrənilib ümumiləşdirilməsi; 3) müşahidə; 4) müsahibə; 5) anket sorğusu; 6) eksperiment və s.

**Nəzəri təhlil.** Problemlə əlaqədar pedaqoji, psixoloji, metodiki ədəbiyyat təhlil edilmiş, fəaliyyət, şəxsiyyət, şəxsiyyətlərarası münasibətlər baxımından qabaqcıl təcrübə ümumiləşdirilmişdir. Digər tədqiqatçıların tədqiqatları ilə aldığımız nəticələr müqayisə edilmiş, oxşar və fərqli cəhətlər üzə çıxarılmışdır.

**Müşahidə.** Tədqiqat prosesində Bakı və Sumqayıt şəhərlərində yerləşən 15 körpələr evi-uşaq bağçasında təlim və tərbiyə prosesində uşaqların fəaliyyəti müşahidə olunmuşdur.

**Müsahibə və anket sorğusu.** Məktəbəqədər təhsil müəssisələrindətərbiyəçi-uşaq ünsiyyəti, uşağın ünsiyyət qabiliyyətinin formalaşdırılması üçün imkan və yolları müəyyən etmək, onun səmərəliliyini üzə çıxarmaq üçün tərbiyəçilərlə, valideynlərlə, uşaqlarla müsahibələr və anket sorğusu aparılmışdır. Alınan cavablar təhlil edilərək ümumiləşdirilmiş və tədqiqat nəticələrinin alınmasında onlardan istifadə edilmişdir.

**Pedaqoji eksperiment**. Tədqiqat zamanı üç mərhələdəpedaqoji eksperiment aparılmışdır: müəyyənedici (2017-2018-ci tədris ili), öyrədici (2018-2019-cu tədris ili) və yoxlayıcı (2019-2020-ci tədris ili).

**Müdafiəyə təqdim olunan müddəalar:**

- məktəbəqədər təhsildə pedaqoji ünsiyyətin subyekt-subyekt münasibətləri üzərində qurulması uşaqların psixi inkişafında, eləcə də onların şəxsiyyət kimi formalaşmasında əhəmiyyətli rol oynayır, pedaqoji ünsiyyət uşaq şəxsiyyətinin inkişafının əsas amilinə çevrilir;
- tərbiyəçi-uşaq ünsiyyətinin qarşılıqlı hörmət, əməkdaşlıq, tolerantlıq üzərində qurulması təlimin səmərəliliyinin yüksəlməsinə əsaslı şəkildə təsir edir;
- pedaqoji proses zamanı tərbiyəçinin demokratik ünsiyyət üslubu kollektivdə psixoloji iqlimin formalaşmasında başlıca rol oynayır;
- tərbiyəçi-uşaq ünsiyyətinin düzgün qurulması və bu prosesdə uşaqların təlim maraqlarının, motivlərinin, yaş xüsusiyyətlərinin nəzərə alınması onlar arasında ünsiyyətin pozitiv yönümdə olmasına, uşaqların özünüfəallaşdırması, özünüdərki, özünüifadəsi üçün münbit şərait yaradır.

**Tədqiqatın elmi yeniliyi.** Uşaq şəxsiyyətinin formalaşmasında pedaqoji ünsiyyətin rolu, pedaqoji təsir formaları, müsbət və mənfi

emosiyaların təsiri, təlim-tərbiyə prosesində uşaqların özünüaktuallaşdırması kimi komponentlər həm nəzəri, həm də praktik cəhətdən üzə çıxarılmışdır. Eyni zamanda təlim-tərbiyə prosesində formal qarşılıqlı münasibətlərdən əməkdaşlıq münasibətlərinə keçilməsini təmin edən tərbiyəçi-uşaq ünsiyyətinin formalaşması prosesi elmi cəhətdən əsaslandırılmışdır. Tərbiyəçi-uşaq ünsiyyətinin subyekt-subyekt münasibətləri üzərində qurulmasının psixoloji əsasları, belə münasibətlər sisteminin səmərəliliyi və xüsusilə tərbiyəçinin ünsiyyət üslubunun təsir imkanları işlənilmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti**. Tərbiyəçi-müəllimin kommunikativ səriştəliliyi və tərbiyəçi-uşaq ünsiyyətinin subyek-subyekt münasibətləri əsasında qurulması, ünsiyyətin tərbiyəolunanların şəxsiyyətinin inkişafına yönəlməsi üzrə işlənilmiş müddəalar tədqiqatın nəzəri əhəmiyyətini təşkil edir. Tədqiqat nəticələrindən tərbiyəçi-uşaq ünsiyyətinin düzgün, müasir dövrün tələblərinə uyğun qurulmasında, pedaqoji işin səmərəli təşkilində və qrup kollektivinin idarə olunmasında istifadə edilə bilər. Həmçinin, pedaqoji kollektivdə sağlam psixoloji mühitin formalaşmasında, məktəbəqədər təhsil müəssisələrinin fəaliyyətində, tədqiqatın nəticələrindən valideynlər, loqopedlər, psixoloqlar və məktəbəqədər sahədə çalışan mütəxəssislər özlərinin praktik fəaliyyətində istifadə edə bilərlər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatın nəticələri bir sıra respublika və Beynəlxalq konfranslarda öz əksini tapmış, müəllif Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nəşrlərdə 8 jurnal məqaləsi (o cümlədən 3-ü xaricdə), 1 metodik göstəriş, 6 məruzə tezisi (o cümlədən 3-ü xaricdə) və 4 fənn proqramı çap olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təhsilin pedaqogikası kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi.** Giriş – 17857 işarə, 10 səhifə, I fəsil – 77984 işarə, 48 səhifə (1.1. – 17227 işarə, 9 səhifə; 1.2. – 15543 işarə, 8 səhifə; 1.3. –20160 işarə, 13 səhifə; 1.4. – 25054 işarə, 18 səhifə), II fəsil – 107289 işarə, 67 səhifə (2.1. – 28170 işarə, 16 səhifə; 2.2. – 40226 işarə, 24 səhifə; 2.3. – 38892 işarə, 27 səhifə),

nəticə – 8286 işarə, 5 səhifə və istifadə edilmiş ədəbiyyat siyahısı 10 səhifədən ibarətdir.

Dissertasiyanın ümumi həcmi 211416 işarə və 147 səhifədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılmış, tədiqatın məqsədi, vəzifələri, tədqiqat metodları, elmi yeniliyi, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, müdafiəyə çıxarılan başlıca müddəalar, nəticələrin aprobasiyası məsələləri şərh edilmişdir.

Dissertasiyanın I fəsli "**Pedaqoji ünsiyyətin mahiyyəti və məktəbəqədər təhsildə onun yeri**" adlanır və fəsil 4 paraqrafdan ibarətdir. Fəslin *"Pedaqoji ünsiyyətin mahiyyəti və məzmunu"* adlanan 1-ci paraqrafında pedaqoji ünsiyyətin mahiyyəti və məktəbəqədər təhsildə onun yeri tədqiq edilir. Şəxsiyyətin tərbiyəsinin əsası erkən uşaqlıq dövründə qoyulduğundan məktəbəqədər yaş dövrü uşağın həm davranışında, həm də sosial inkişafında vacib bir dövr kimi əsaslandırılır, uşaq şəxsiyyətinin inkişafında pedaqoji ünsiyyətin əsaslı rol oynaması və əhəmiyyət kəsb etməsi şərh edilmişdir.

Uşağın tərbiyəsionun sosial inkişafının əsasını təşkil edir. Ünsiyyət məktəbəqədər yaş dövründə intensiv xarakter daşıyır. Məktəbəqədər yaş dövründə uşaq böyüklərlə ilk ünsiyyətini qurur, öz bədənini və davranışlarını idarə etməyə, nitqli ünsiyyət vərdişlərinə yiyələnməyə başlayır. Bu dövrdə ünsiyyət şəxsiyyətin formalaşmasına fəal təsir göstərən amillərdən biri kimi çıxış edir və buna görə də tərbiyəçi-uşaq və uşaq-uşaq ünsiyyətinin formalaşmasına xüsusi diqqət yetirmək lazım gəlir. Ünsiyyət, səmərəli qarşılıqlı əlaqənin formalaşmasına və insanlar arasında bu əlaqənin tənzimlənməsinə xidmət etmək üçün çox vacibdir.

Tərbiyəçi-uşaq münasibətinin məna çalarları geniş, mürəkkəb və çoxcəhətlidir. Bu, sosial, psixoloji və qarşılıqlı təsir prosesləridir. Bu münasibətlərin səmimiliyi, dərinliyi, valideyn-övlad münasibətləri səviyyəsində təşkili təlim-tərbiyə işinin müvəffəqiyyətlə nəticələnməsində mühüm əhəmiyyətə malik olub, kiçikyaşlı uşaqlar arasında əlaqələrin yaranmasında, onların birgə fəaliyyətində, bir-birini anlama-

sında, başa düşməsində mühüm rol oynayır. Uşaqlar bir-biri ilə ünsiyyət prosesində özlərinin fikirlərini, gördüklərini danışırlar. Bu yaş dövründə hərəkət və əşyavi fəaliyyət ön plana keçdiyindən vəkiçikyaşlı uşaqlar qarşı tərəfin arzu, istək, əhvalını da nəzərə almağı müəyyən qədər bacardıqlarından ünsiyyətin düzgün qurullması mühüm əhəmiyyətə malik olur.

Məktəbəqədər təhsildə pedaqoji ünsiyyəttəlim-tərbiyə işinin düzgün qurulmasına və uşaqların fəallaşdırılmasına, "tərbiyəçi-uşaq", "uşaq-uşaq" münasibətlərinin yaxşılaşdırılmasına yönəldilir, tərbiyəçinin öz peşə ustalığının təkmilləşdirməsinə xidmət edir.

Pedaqoji ünsiyyət tərbiyəçi-müəllim xarakterinin qarşılıqlı təsirini əks etdirir. Məktəbəqədər təhsil müəssisələrində tərbiyəçi-uşaq münasibətləri yüksək pedaqoji ustalıqla qurulduqda o, təlim-tərbiyə və inkişaf prosesinin əsil hərəkətverici qüvvəsinə çevrilir. Onun vasitəsilə uşaqlarda davranış qabiliyyəti, dünyagörüşü, nitq mədəniyyəti, müşahidəçilik bacarığı və s. xüsusiyyətlər formalaşır. Tərbiyəçinin pedaqoji fəaliyyətdə uğur qazanması üçün onun uşaq şəxsiyyətinə hörmət etməsi, səmərəli ünsiyyət qabiliyyətinə malik olmasıvə s. olduqca mühüm təsir imkanına malikdir.

Fəslin *"Elmi-pedaqoji və psixoloji ədəbiyyatda problemin qoyuluşu"* adlanan 2-ci paraqrafında tərbiyəçi-uşaq ünsiyyəti, ünsiyyət mədəniyyəti, uşaq şəxsiyyətinin formalaşmasında ünsiyyətin rolunun elmi-pedaqoji və psixoloji ədəbiyyatda qoyuluşu vəziyyəti öz əksini tapmışdır. Müxtəlif pedaqoji-psixoloji ədəbiyyatlar təhlil edilmiş, müəlliflərin fikir və ideyalarına münasibət bildirilmişdir.

Aparılan təhlillər və ümumiləşdirmələr nəticəsində belə bir qənaətə gəlinmişdir ki, uşaq şəxsiyyətinin formalaşmasında tərbiyəçi-uşaq münasibətlərinin "subyekt-subyekt" münasibətləri üzərində qurulması,uşaqların ünsiyyət tələbatının tərbiyəçi-müəllim tərəfindən bacarıqla təmin edilməsi onların bir şəxsiyyət kimi formalaşmalarına əsaslı təsir göstərən amillərdəndir. Burada həm tərbiyəçi-müəllimin, həm də uşaqların ünsiyyət təlabatının olması aparıcı rola malikdir. Bütün bunlar kiçikyaşlı uşaqların mənəvi dünyasının, motivasiya-tələbat sahəsinin zənginləşməsini və yeni məzmunda qurulmasını zəruri etdiyindən ona nail olunması çox vacibdir.

Şəxsiyyətin inkişafı bioloji, psixoloji və sosial amillərin vəh-

dətdə təsiri altında baş verən mürəkkəb və obyektiv hadisədir. İnkişafın sürətini nizamlamaq, istiqamətinin məqsədyönlülüyünü təmin etmək mümkündür və bu o zaman daha yüksək nəticələrə səbəb olur ki, tərbiyəçi-uşaq ünsiyyətin əsasında hörmət, humanist münasibət dayanmış olsun. Məhz belə olduqda tərbiyəçi-uşaq ünsiyyəti şəxsiyyətin formalaşdırılmasının əsas alətinə, vasitəsinə çevrilə bilir.

Təlim-tərbiyə işi öz mahiyyəti etibarilə ünsiyyət prosesidir. Tərbiyəçi-müəllimin peşə fəaliyyətinə marağı, emosional vəziyyəti, işə və uşaqlara münasibəti və s. ünsiyyətin necəliyinə təsir göstərən mühüm amillərdən olduğundan məktəbəqədər təhsil müəssisələrində onun səmərəli qurulması xüsusi əhəmiyyət kəsb edir.

3-cü paraqraf *"Məktəbəqədər təhsildə pedaqoji ünsiyyətə verilən tələblər"* adlanır. Burada uşaq şəxsiyyətinin formalaşmasında tərbiyəçinin humanist mövqedən yanaşmasının və təhsil-tərbiyə prosesinin şəxsiyyətyönümlü istiqamətdə təşkili və aparılmasının rolu, əhəmiyyəti qeyd olunmuşdur. Böyüklərin uşaqların gözü ilə ətraf aləmə baxması, özünü onun yerinə qoyması və onun nöqteyi-nəzərindən çıxış etməsi bacarığı xüsusi vurğulanmışdır.

Dissertasiyada uşaqların tərbiyəsi və inkişafına şəxsiyyətyönümlü yanaşma prinsipinə düzgün yanaşılması və bunun üçün tərbiyəçilərin qarşısında: 1) uşaqlarla səmimi münasibət yaradılması; 2) uşaqlarla yaradıcı münasibətin olması; 3) yanaşmanın müsbətyönümlülüyü; 4) özünü uşağın yerində hiss etmə bacarığının olması; 5) mehriban, qayğıkeş şəkildə uşaqlara yanaşma; 6) sağlam və yaradıcı mühitin formalaşdırmasına nail olması kimi tələblərin olduğu qeyd edilmiş və geniş şərh edilmişdir. Qeyd edimişdir ki, bu keyfiyyətlər uşaqlarla ünsiyyət zamanı onlarda bir sıra müsbət adət və vərdişlər formalaşdırır ki, bunlar da uşaq bağçasının kiçik, orta, böyük və məktəbəhazırlıq qruplarına keçdikcə daha da möhkəmlənir və uşaqların əqidəsinin və davranışının vəhdətinə gətirib çıxarır.

Bu paraqrafda qarşılıqlı ünsiyyət prosesində uşaqlara bir sıra müsbət keyfiyyətlərin aşılanmasının zəruriliyi vurğulanmış, bu keyfiyyətıərin məzmunu şərh edilmiş, həmçinin pedaqoji ünsiyyətin uşaqların bir şəxsiyyət kimi formalaşmasına yüksək təsir etməsi və eyni zamanda, məktəbəqədər təhsil müəssisələrində həyata keçirilən təhsil prosesinin səviyyəsinin yüksəldilməsində başlıca faktorlardan

biri olması xüsusi qeyd edilmişdir. Pedaqoji ünsiyyətin təlim prosesinin səmərəliliyinə müsbət təsir göstərməsi üçün aşağıdakı bir sıra pedaqoji şərtlərin təmin edilməsinin vacibliyi göstərilir:

1. Şəxsiyyətin bütün keyfiyyətlərinin inkişafı, subyektin fəaliyyəti üçün başlıca əlverişli şərait yaradılması.

2. Məktəbəqədər yaşlı uşaqların yaş və fizioloji imkanlarına müvafiq müasir təlim texnologiyalarının sistemləşdirilməsi və iş formalarının təkmilləşdirilməsi.

3. Böyüklərlə uşaqların səmərəli ünsiyyət fəaliyyətinin təmin edilməsi.

Fəslin *"Pedaqoji ünsiyyət baxımından məktəbəqədər təhsil müəssisələrində vəziyyət"* adlanan 4-cü paraqrafında məktəbəqədər təhsil müəssisələrində mövcud vəziyyət öyrənilmişdir. Burada qeyd edilir ki, məktəbəqədər təhsil müəssisələrində uşağın şəxsiyyət kimi formalaşmasını təmin etmək məqsədilə pedaqoji ünsiyyətin rolunun gücləndirilməsi vacibdir.

Tədqiqatda pedaqoji tədqiqat metodlarından kompleks istifadə edilmiş, uşaqlar müxtəlif şəraitlərdə, məşğələdə, məşğələdənkənar vaxtlarda və müxtəlif tədbirlər zamanı öyrənilmişdir. Tədqiqatımız göstərdi ki, məktəbəqədər təhsil müəssisələrində yüksək ünsiyyət mədəniyyətinə malik, məşğələlərdə, məşğələdənkənar tədbirlərin imkanlarından bacarıqla istifadə edərək uşaqlarla əməkdaşlıq edən tərbiyəçilər az deyil. Onlar təlim-tərbiyə prosesində uşaqlarla düzgün ünsiyyət saxlamaqla, əməkdaşlıq etməklə uşaqların şəxsiyyətinin inkişaf etdirilməsinə çalışırlar. Lakin, tərbiyəçilərin uşaqlarla münasibətlərinin gizli və açıq şəkildə müşahidəsi, tərbiyəçilərlə apardığımız söhbətlər, valideynlərin fikrinin öyrənilməsi və uşaqlara ünvanlandırılan suallara cavabların təhlili göstərdi ki, bəzi tərbiyəçi-müəllimlərin uşaqlarla münasibəti, ünsiyyəti, əməkdaşlığı heç də yüksək səviyyədə deyildir. Bəzi tərbiyəçilər uşaqlara xoş münasibət bəsləmir və onlarla yaxından, işgüzar əməkdaşlıq edə bilmirlər. Onlar tərbiyəçi-uşaq münasibətlərinə verilən prinsip və tələbləri, yeni yanaşmaları sistemli tətbiq etmir, "ünsiyyət, əməkdaşlıq və şəxsiyyətin tərbiyəsi"nin bir-birini tamamlamasına o dərəcədə də nail ola bilmirlər. Müşahidələrimiz və tərbiyəçi-müəllimlərlə apardığımız söhbətlər və anket sorğuları bu münasibətlərin necəliyini aşağıdakı cədvəldə göstərilir (Cədvəl 1.4.2).

**Cədvəl 1.4.2**
**Tərbiyəçi-müəllim və uşaq əməkdaşlığına, tərbiyəçi-müəllimlərin münasibətləri**
**.**

| № | Suallar | Düzgün və tam cavab | | Əsasən düzgün cavab | | Səhv cavab və cavab vermədi | |
|---|---|---|---|---|---|---|---|
| | | İştirak edənlərin Sayı (nəfərlə) | faizlə | İştirak edənlərin Sayı (nəfərlə) | faizlə | İştirak edənlərin Sayı (nəfərlə) | faizlə |
| 1. | Pedaqoji əməkdaşlıq zamanı hansı prinsiplərə, metodlaraüstünlük verirsiniz? | 82 | 38,3% | 58 | 27,1% | 74 | 34,6% |
| 2. | Uşağa şəxsiyyət kimi yanaşıram fikrini necə izah edə bilərsiniz? | 102 | 47,7% | 63 | 29,4% | 49 | 22,9% |
| 3. | Uşaqlarla əməkaşlıq edirsinizmi və necə? | 111 | 52,0% | 51 | 23,8% | 52 | 24,2% |
| 4. | Təlim-tərbiyə prosesində ünsiyyətin hansı növlərindən istifadə edirsiniz? | 98 | 45,8% | 62 | 29,0% | 54 | 25,2% |
| 5. | Uşaqlarınbağçaya adaptasiya olunması üçün hansı üsullardan istifadə edirsiniz? | 107 | 50,0% | 54 | 25,2% | 53 | 24,8% |

Cədvəldən göründüyü kimi, tərbiyəçi-müəllimlərin uşaqlarla qarşılıqlı ünsiyyəti haqında münasibətləri heç də birmənalı deyildir. Nəticədə uşaqlar tərbiyəçilərlə, ümumiyyətlə onları əhatə edənlərlə səmimi ünsiyyət qura bilmirlər. Bu baxımdan məktəbəqədər yaşlı uşaqların şəxsiyyət kimi formalaşması üçün ünsiyyətlə bağlı tərbiyəçi-müəllimlərin aşağıdakı tələbləri gözləmələri məqsədəmüvafiq hesab edilmiş və dissertasiya işində onlara geniş yer verilmişdir:

a) uşaq şəxsiyyətinin, yaradıcılıq qabiliyyətinin, bilik və bacarıqıarının formalaşdırılması və inkişaf etdirilməsi üçün onlarla ünsiyyətin demokratik tərzində münasibətin yaradılması;

b) təlim-tərbiyə prosesində, müxtəlif fəaliyyət sahələrində uşağın subyekt kimi çıxış etməsinə imkan verən bilik, bacarıq və vərdişlər sisteminə və ünsiyyət vərdişlərinə yiyələnməsinin təmin olunması;

c) uşaqlarınfiziki, psixi, sosial, kommunikativ və intellektual cəhətdəninkişaf etdirilməsində, onların şəxsiyyət kimi formalaşdırılmasında pedaqoji ünsiyyətin, tərbiyəçi-uşaq münasibətlərinin imkanlarından geniş istifadə edilməsi;

d) tərbiyəçi və uşaqların əməkdaşlığına əsaslanmayan, avtoritarlıq, psixoloji gərginlik şəraitində olan ünsiyyətdən imtina edilməsi, uşaqlarla səmimi ünsiyyət yarada bilən mühitin qurulması və s.

Dissertasiyanın "**Məktəbəqədər təhsildə pedaqoji ünsiyyətin uşaq şəxsiyyətininformalaşmasına təsiri**" adlanan ikinci fəsli üç paraqrafdan ibarətdir.

Fəslin *"Təlim-tərbiyə prosesinin sosial-psixoloji cəhətdən təmin olunması pedaqoji ünsiyyətin vasitəsi kimi"* adlanan1-ci paraqrafında göstərilir ki, məktəbəqədər yaşlı uşaqların geniş və mürəkkəb olan tərbiyə prosesinin müvəffəqiyyətlə həyata keçirilməsi və nəticələnməsi bir sıra amillərlə bağlıdır. Bunlardan biri də uşaqlarla aparılan tərbiyə prosesinin sosial-psixoloji cəhətdən təmin olunmasıdır. Sosial-psixoloji tamlıq tərbiyənin daha da uğurlu və hərtərəfli aparılmasına səbəb olur. Pedaqoji ünsiyyət də məhz sosial-psixoloji qarşılıqlı təsir prosesi kimi meydana çıxır və özünü göstərir.

Tərbiyəçi-uşaq ünsiyyəti şəxsiyyətin formalaşdırılmasının alətinə, vasitəsinə o zaman çevrilir ki, bu ünsiyyətinəsasında uşaq şəxsiyyətinə hörmət, humanist münasibətlər dayanmış olsun. Bu baxımdan dissertasiyada qeyd olunur ki, məktəbəqədər yaşlı uşaqların ünsiyyət tələbatı öz başlanğıcını yaşlıların xeyirxah niyyətindən, xoş təbəssüm və baxışlarından götürülür, sonralar uşağın özünü təsdiq etməyə, müstəqilliyə, yaxın adamlarla ruhi-mənəvi bağlılığa çevrilir, onlar üçün darıxma həddinə qədər yüksəlmiş olur.

Ünsiyyət prosesində uşaqlar müxtəlif bilik və bacarıqlara yiyələnirlər ki, bunlar da real varlığın dərk edilməsinə xüsusi istiqamət verir. Təcrübə göstərir ki, ünsiyyət eyni zamanda psixi proseslərin təzahüründə özünəməxsus tərzdə iştirak edir və kollektivdə müsbət psixoloji mühit yaradılmasına da öz müsbət təsirini göstərir. Eyni zamanda, uşaqlar üçün əlverişli və onların inkişafına səbəb olan öyrədici, dəs-

təkləyici mühitin yaradılması bu prosesə geniş imkanlar yaradır. Dissertasiyada belə mühitə verilən tələblər və onların uşaqların inkişafına təsir imkanları geniş şəkildə araşdırılmış, keçiriləcək tərbiyəvi tədbirin məzmununun sosial xarakterə malik olması və tədbirlərin psixoloji təminatı, yəni onun uşaqların psixikasına təsir göstərəcək səviyyədə olması məsələləri xüsusi qeyd edilmişdir.

II fəslin *"Pedaqoji ünsiyyət prosesində məktəbəqədər yaşlı uşaqların şəxsiyyətinin formalaşmasının imkan və yolları"* adlı 2-ci paraqrafında məktəbəqədər yaşlı uşaqların şəxsiyyət kimiformalaşmasının əhəmiyyəti, imkan və yolları öz əksini tapmışdır.

Paraqrafda göstərilir ki, tərbiyəçi-müəllimilə uşaqların qarşılıqlı münasibətində diferensial yanaşma təlimin nəticələrinə təsir göstərən mühüm amildir. Özünə inamsız, utancaq, ünsiyyətdən qaçan, verilən tapşırıqları yerinə yetirə bilməyən uşaqlar məşğələdə tərbiyəçinin onlara göstərdiyi münasibətə xüsusilə həssas olurlar. Belə uşaqlar tərbiyəçinin onların fikirlərinə diqqət yetirdiyini, səylərini lazımınca qiymətləndirdiyini, müvəffəqiyyətlərinə sevindiyini və uğursuzluqlarına kədərləndiyini görəndə özlərini daha inamlı hiss edirlər.

Dissertasiyada pedaqoji ünsiyyətin formalaşdığı mühit kimi uşaqlarla aparılan təlim (məşğələ) və məşğələdənkənar tərbiyəvi tədbirlər prosesi əsas baza kimi götürülmüş, onların imkanları araşdırılmış, ünsiyyətin onlarda bilik, bacarıq və vərdişlərin formalaşdırılmasına müsbət təsir göstərdiyi əsaslandırılmışdır.

Təlim-tərbiyə işinin səmərəliliyi xeyli dərəcədə tərbiyəçi-uşaq ünsiyyətindən, pedaqoji əməkdaşlığın səviyyəsindən asılı olduğundan tərbiyəçilərin məşğələ prosesində uşaqlarla səmimi ünsiyyət yaratmaları onların bir şəxsiyyət kimi formalaşmasında əsaslı rol oynayır. Tərbiyəçinin qrup otağınadaxil olması, onun üz-göz ifadəsi, uşaqlarla salamlaşma tərzi, ayrı-ayrı uşaqlara və bütün qrupa müraciəti, qrupda işgüzar əhval-ruhiyyənin yaradılması kimi məsələlər bu baxımdan nəzərə alınmalıdır. Tərbiyəçinin sadəliyi, xoş təsir bağışlayan ifadəli, gözəl, səlis və emosional nitqi, özünə və uşaqlara qarşı tələbkarlığı, uşaq şəxsiyyətinə hörməti, onlara qarşı xeyirxahlığı, nəzakəti və s. ünsiyyətin səmərəliliyini təmin edən başlıca şərtlər kimi diqqətdən qaçırılmamalıdır.

Fəslin *"Pedaqoji eksperimentin təşkilivə aparılması"* adlı 3-cü

paraqrafında məktəbəqədər təhsil müəssisələrindəaparılan eksperimental işlər ümumiləşdirilmiş və əsaslandırılmışdır. Tədqiqat zamanı üç mərhələdəpedaqoji eksperiment aparılmışdır: müəyyənedici (2017-2018-ci tədris ili), öyrədici (2018-2019-cu tədris ili) və yoxlayıcı (2019-2020-ci tədris ili).

Eksperiment 2017-2020-ci illəri əhatə etməklə 3 tədris ili müddətində aparılmışdır. 2020-2022-ci illərdə isə eksperimentin necəliyi bir daha yoxlanılmışdır. Eksperimentə Bakının "Qərənfil"körpələr evi-uşaq bağçası, 174, 303, 340 №-li körpələr evi-uşaq bağçaları və Sumqayıt şəhərinin 4 və18№-li məktəbəqədər təhsil müəssisələricəlb edilmişdir.

Birinci mərhələdə (2017-2018-ci tədris ili) tədqiq etdiyimiz problem üzrə uşaq bağçalarındakı real vəziyyətin səviyyəsi aşkara çıxarılmışdır. Sənədlər öyrənilmiş, məktəbəqədər təhsil müəssisələrinin əməkdaşları və uşaqlarla söhbətlər, müsahibələr aparılmış, məşğələlər və məşğələdənkənar keçirilən tədbirlər müşahidə edilmiş, müəyyən ümumiləşdirmələr aparılmışdır. Eksperimentdə 132 nəfər uşaq, 11 tərbiyəçi-müəllim iştirak etmişdir.

İkinci mərhələdə (2018-2019-cu tədris ili) uşaqların şəxsiyyət kimi formalaşmasında pedaqoji ünsiyyətin rolunun müəyyənləşdirilməsi üzrə məktəbəhazırlıq qruplarında öyrədici eksperiment aparılmışdır. Tərbiyəçi-müəllimlər hazırladığımız təlimatlar əsasında uşaqlarla iş aparmış, pedaqoji ünsiyyətin müxtəlif növ və tərzlərinin tətbiqi üzrəgeniş öyrədici işlər həyata keçirilmişlər.

Üçüncü mərhələdə (2019-2020-ci tədris ili) tətbiq edilmiş iş sistemi əsasında tərbiyəçi və uşaqlar arasında pedaqoji ünsiyyətin necə təşkil edilməsini yoxlamaq məqsədilə yoxlayıcı eksperiment keçirilmişdir. Bu zaman uşaqların inkişaf səviyyəsi müəyyənləşdirilmiş, əldə olunmuş nəticələr əvvəlki mərhələlərlə müqayisə olunmuş, təqdim edilmiş sistemin üstünlüyü təsdiq edilmidir. Alınmış təcrübi-eksperimental materiallar və işin əsas nəticələri ümumiləşdirilmişdir.

Mövcud vəziyyəti öyrənmək üçün öncə müəyyənedici eksperiment apardıq.Müəyyənedici mərhələdə tərbiyəçinin uşaqlarla pedaqoji ünsiyyətin təşkili üzrə bilik və bacarıqları aşkar edilmiş; uşaqların tərbiyəçilərə münasibəti,əməkdaşlığı, inamı, səmimiliyi xüsusi

metodika ilə yoxlanılmışdır. Bu zaman aşağıdakı bir sıra spesifik nöqsanlar özünü göstərdi: onlar əsasən müxtəlif ünsiyyət şəraitində uşaqların böyüklərdən aslı olmasından; ünsiyyət zamanı inamsızlığın nümayiş etdirilməsindən; tərbiyəçi-müəllimlərin qarşılıqlı ünsiyyəti təşkil etmək bacarıqlarının zəif olmasından; uşaqların yaş və fərdi xüsusiyyətlərinin nəzərə alınmamasından və s. ibarət olmuşdur.

Öyrədici eksperiment zamanı tərbiyəçi-müəllimlərlə və uşaqlarla bir sıra işlər (təlim prosesində ənənəvi və müasir metodlardan, yeni texnologiyalardan istifadə etməklə pedaqoji ünsiyyətin fəallaşdırılması; məşğələlərdə inteqrasiya məsələlərinin gözlənilməsi; pedaqoji ünsiyyətin bir sıra tərzlərinin yaradıcı istifadəsi; məşğələdənkənar tədbirlərdə pedaqoji ünsiyyətin (bayramlar, ekskursiya, sərgilər və s.) yaradılması və onun səmərəliliyinin yüksəldilməsi) görülmüşdür.

Müəyyənedici və öyrədici eksperimentin nəticələrinin qiymətləndirilməsi yoxlayıcı metodikadan (tapşırıq, oyun, test və situasiyaların təqdim edilməsi) istifadə etməklə müəyyənləşdirilmişdir. Yoxlayıcı eksperiment pedaqoji ünsiyyət üçün müəyyənləşdirdiyimiz meyarlar (sözlə müraciət və sözsüz müraciət komponentləri; uşaqların dəyişkən rəftarına tərbiyəçinin münasibəti; qrupda əlverişli psixoloji mühitin yaradılması; hər bir uşağa şəxsiyyət kimi yanaşılması və uşaqlar arasında bir-birinə hörmət hissinin aşılanması; xoşagəlməz situasiyalarda tərbiyəçinin uşaqların hərəkətlərinə səbrli reaksiyası; tərbiyəçinin uşaqlarda pozitiv "Mən" konsepsiyasının yaradılmasına təsiri; uşaqlarda müsbət özünüqiymətləndirmə reaksiyasının yaradılması və s.) əsasında keçirilmişdir.

Öyrədici eksperiment zamanı bir sıra məsələlərin (məktəbəqədər təhsil müəssisələrində 5-6 yaşlı uşaqlarla pedaqoji ünsiyyətin didaktik modelinin həyata keçirilməsi və müxtəlif fəaliyyət növlərində (təlim və təlimdənkənar) pedaqoji ünsiyyətin təmin edilməsi) reallaşdırılması həyata keçirildi.

Eksperimentin öyrədici mərhələsində pedaqoji ünsiyyətin uşaqların şəxsiyyətinin formalaşmasına təsiri üzrə işlənilləndidaktik model reallaşdırıldı. Bu model pedaqoji ünsiyyət üzrəişlərin planlı şəkildə aparılmasını nəzərdə tuturdu.

İşlənilən metodika mərhələli surətdə məşğələlərə və məşğələdənkənar tədbirlərə daxil edildi. Eksperiment zamanı hər bir uşağın

potensialının aşkar edilməsi, yaxşı əhval-ruhiyyədə olması, marağı, meyli, təşəbbüskarlığı, inam hissi təmin olundu.

Eksperiment zamanı təlim, əmək və oyun prosesində pedaqoji ünsiyyətin təşkili məsələlərinə xüsusi diqqət verildi (Cədvəl 2.3.1).

**Cədvəl 2.3.1**
**Pedaqoji ünsiyyətin reallaşması səviyyəsi**
**Səviyyələr üzrə qeyd: A – aşağı, O – orta, Y- yüksək**

| İllər | Məktəbəqədər təhsil müəssisələri | Uşaqların sayı (5-6 yaşlı) (nəfərlə) | Fəaliyyət növləri üzrə | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Kontrol qrupları | 67 100% | Təlim | | | Oyun | | | Əmək | | |
| | | | A | O | Y | A | O | Y | A | O | Y |
| 2017-2018 | Bakı, “Qərənfil" Bakı, 174 №- li u/b Bakı, 303 № li u/b | | 34 50,7 % | 25 37,3 % | 8 12,0% | 31 47,0 % | 27 41,0 % | 9 12,0% | 35 52,2 % | 22 32,8 % | 10 15,0 % |
| | Eksperimental qruplar | | | | | | | | | | |
| 2017-2018 | Bakı, 340 №- li u/b Sumqayıt 18 №- li u/b Sumqayıt 4 №- li u/b | 65 100% | 32 49,2 % | 27 41,6 % | 6 9,2 % | 33 50,8 % | 24 36,9 % | 8 12,3 % | 36 55,4 % | 25 38,5 % | 4 6,1 % |

Göründüyü kimi, istər kontrol (67 nəfər), istərsə də eksperimental qrup (65 nəfər) uşaqlarınıntəlim prosesində ünsiyyət vərdişlərinə yiyələnmələri müvafiq qaydada aşağı (50,7% ~ 49,2%), orta (37,3% ~ 41,6%) və yüksək (12,0% ~ 9,2%) göstəricilər üzrə, oyun prosesində aşağı (47,0% ~ 50,8%), orta (41,0% ~ 36,9%) və yüksək (12,0% ~ 12,3%) göstəricilər üzrə və əmək prosesində pedaqoji üniyyətin təşkili aşağı (52,2% ~ 55,4%), orta (32,8% ~ 38,5%) və yüksək (15,0% ~ 6,1%) göstəricilər olmaqla təxminən bərabər səviyyədə olmuşdur.

Məşğələdənkənar vaxtlarda da (ekskursiya, müsahibələr, disputlar və s.) pedaqoji ünsiyyətə geniş yer verilmiş və onların pedaqoji ünsiyyətin inkişafında müsbət rolu olduğu müəyyən edilmişdir (Cədvəl 2.3.2).

**Cədvəl 2.3.2**
**Adaptasiyavə məşğələdənkənar vaxtlarda ünsiyyət səviyyələri**

| İllər | Uşaq bağçaları | Uşaqların sayı (5-6 yaşlı) | Pedaqoji ünsiyyətin reallaşması səviyyəsi (adaptasiya və məşğələdənkənar vaxtlarda) | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Kontrol qrupları | 67<br>100% | Adaptasiya | | | Məşğələdənkənar vaxtlarda | | |
| | | | A | O | Y | A | O | Y |
| 2017-2018 | Bakı, "Qərənfil"<br>Bakı, 174 №- li u/b<br>Bakı, 303№- li u/b | 23<br>21<br>23 | 39<br>58,2 % | 21<br>31,3 % | 7<br>10,5 % | 38<br>56,7 % | 23<br>34,3 % | 6<br>9,0 % |
| 2017-2018 | Eksperimental qruplar | 65<br>100% | 41 | 20 | 4 | 37 | 22 | 6 |
| | Bakı, 340 №- li u/b<br>Sumqayıt 18 №- li u/b<br>Sumqayıt 4 №- li u/b | 22<br>20<br>23 | 63,0 % | 30,8 % | 6,2 % | 56,9 % | 33,8 % | 9,3 % |

Göründüyü kimi, istər kontrol (67 nəfər), istərsə də eksperimental qrup (65 nəfər) uşaqlarının pedaqoji ünsiyyət prosesindəuşaq bağçasınaadaptasiyaolunması səviyyəsi müvafiq qaydada aşağı (58,2%~ 63,0%), orta (31,3%~30,8%) və yüksək (10,5%~6,2%) göstəricilər üzrə, məşğələdənkənar vaxtlarda müxtəlif fəaliyyət növlərində iştirak etmələrinin pedaqoji ünsiyyət göstəriciləri aşağı (56,7%~56,9%), orta (34,3%~33,8%) və yüksək (9,0%~9,3%)səviyyədə təxminən bərabər səviyyədədir.

Eksperimentin yoxlayıcı mərhələsində öyrədici metodikanın səmərəliliyi müəyyənləşdi və uşaqların ünsiyyət bacarıqları və qabiliyyətləri eksperimentə qədərki və eksperimentdən sonrakı göstəricilərlə müqayisə edildi (Cədvəl 2.3.3).

**Cədvəl 2.3.3**

**Təlim, əmək, oyun prosesində yoxlayıcı eksperimentin nəticələri**

| İllər | Məktəbəqədər təhsil müəssisələri | Uşaqların sayı (5-6 yaşlı) (Nəfərlə) | Pedaqoji ünsiyyətin reallaşması səviyyəsi (təlim, oyun, əmək zamanı) | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Təlim | | | Oyun | | | Əmək | | |
| | Eksperimentdən əvvəl | 67<br>100% | A | O | Y | A | O | Y | A | O | Y |
| 2017-2018 Müəyyənedici eksperiment | Bakı, ”Qərənfil”<br>Bakı, 174 №li u/b<br>Bakı, 303№li u/b | 22<br>23<br>22 | 34<br>50,7<br>% | 25<br>37,3<br>% | 8<br>12,0<br>% | 31<br>46,3<br>% | 27<br>40,3<br>% | 9<br>13,4<br>% | 35<br>52,2<br>% | 22<br>32,9<br>% | 10<br>14,9<br>% |
| | Eksperimentdən sonra | 65n<br>100% | | | | | | | | | |
| 2018- 2020 Yoxlayıcı eksperiment | Bakı, 340№liu/b<br>Sumq.18№li u/b<br>Sumq. 4№li u/b | 21<br>22<br>22 | 7<br>10,8<br>% | 38<br>58,4<br>% | 20<br>30,8<br>% | 6<br>9,2<br>% | 35<br>53,8<br>% | 24<br>37% | 8<br>12,3<br>% | 37<br>56,9<br>% | 20<br>30,8<br>% |

Cədvəldən göründüyü kimi, təlim prosesində pedaqoji ünsiyyətin səviyyəsi 50,7% aşağı, 37,3% orta, 12,0% yüksək olduğu halda, eksperimental qruplarda bu göstəricilər xeyli yüksək olmuşdur: aşağı 10,8%-ə enmiş, orta 58,4% , yüksək 30,8%-ə qədər qalxmışdır. Oyun prosesində də aşağı göstərici 46,3%, orta 40,3%, yüksək 13,4% olduğu halda, eksperimental qruplarda aşağı 9,2%-ə enmiş, orta 53,8%, yüksək göstəricilər isə 37%-ə qalxmışdır. Əmək prosesində aşağı səviyyədə 52,2%, orta 32,9%, yüksək səviyyədə 14,9% olmuşdursa, eksperimental qruplarda aşağı göstəricilər12,3%-ə enmiş, orta 56,9%-ə, yüksəkgöstəricilər 30,8% qalxmışdır.

Dəyişiklik uşaqların məktəbəqədər müəssisəyə adaptasiyası və məşğələdənkənar vaxtlarda da nəzərəçarpacaq dərəcədə olmuşdur (Cədvəl 2.3.4).

**Cədvəl 2.3.4**

**Adaptasiya və məşğələdənkənar vaxtlarda ünsiyyət səviyyələri**

| İllər | Məktəbəqədər təhsilmüəssisələri | Uşaqların sayı (5-6 yaşlı) (nəfərlə) | Pedaqoji ünsiyyətin reallaşması səviyyəsi | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | Adaptasiya | | | Məşğələdənkənar vaxtlarda | | |
| | Eksperimentdən əvvəl | 67 100% | A | O | Y | A | O | Y |
| 2017-2018 Müəyyənedici eksperiment | Bakı,"Qərənfil" Bakı, 174 №-li u/b Bakı, 303 №-li u/b | 23 21 23 | 39 58,2% | 21 31,3% | 7 10,5% | 38 56,7% | 23 34,3% | 6 9,0% |
| 2018-2020 Yoxlayıcı eksperiment | Eksperimentdən sonra | 65 100% | | | | | | |
| | Bakı, 340 №- li u/b Sumqayıt 18 №-li u/b Sumqayıt 4 №-li u/b | 21 22 22 | 8 12,3% | 27 41,5% | 30 46,2 % | 7 10,8% | 27 41,5% | 31 47,7% |

Göründüyü kimi, adaptasiya və məşğələdənkənar vaxtlarda da pedaqoji ünsiyyətin səviyyəsində xeyli dəyişiklik olmuşdur. Müəyyənedici mərhələdə uşaqların uşaq bağçasına adaptasiya səviyyəsi aşağı 58,2%, orta 31,3%, yüksək 10,5% idisə, eksperimental qruplarda inkişaf dinamikası yüksək nəticələr göstərdi. Belə ki, aşağı göstərici 58,2%-dən 12,3%-ə düşmüş, orta göstərici 31,3%-dən 41,5%-ə, yüksək göstərici isə 10,5%-dən 46,2%-ə qalxmışdır. Məşğələdənkənar vaxtlarda da pedaqoji ünsiyyət səviyyəsində xeyli irəliləyişlər müşahidə olunmuşdu. Müəyyənedici mərhələdə aşağı göstərici 56,7% olduğu halda, eksperimental qrupda 10,8%-ə enmişdir. Orta göstərici 34,3%-dən 41,5%-ə, yüksək səviyyədə 9,0%-dən 47,7% qalxmışdır.

Beləliklə, belə nəticəyə gəlmək olar ki,tərbiyəçi-müəllimuşaqlara fəaliyyət seçimində, gördüyü işlərin ardıcıllığında, iş üsullarının seçimində sərbəstlik verirsə, onlarla mehriban ünsiyyət şəraitində əməkdaşlıq edirsə uşağın marağı, emosional ruh yüksəkliyi yüksək olur, intensiv əqli fəaliyyət yaranır. Tərbiyəçi-müəllimin uşaqlara fikrini sərbəst ifadə etmək üçün şərait yaratması, onlara psixoloji, informa-

siya və təşkilati dəstək verməsi onları daha da fəal olmağa stimullaşdırır və ünsiyyəti fəallaşdırır.

Eksperimental iş zamanı 5-6 yaşlı uşaqlarla təlim, oyun və əmək prosesindəpedaqoji ünsiyyətin təşkili məsələsinə də ciddi fikir verilməsi, fəaliyyətin müxtəlif növlərinin intensiv xarakter daşıması onu göstərdi ki,uşaqların fəallaşdırılması pedaqoji ünsiyyətin dərinləşməsinə, bu da öz növbəsində uşaq şəxsiyyətinin inkişafına əsaslı təsir göstərir.

Beləliklə, tədqiqat işi aşağıdakı bir sıra **nəticələrə** əsaslanır:

1. Pedaqoji ünsiyət tərbiyəçi-müəllimin uşaqlarla, valideyn və məktəbəqədər müəssisənin əməkdaşları ilə peşəkar ünsiyyətidir ki, bu da əlverişli psixoloji ab-havanın yaradılmasına və pedaqoji vəzifələrin müvəffəqiyyətli həllinə müsbət təsir göstərir. Pedaqoji ünsiyyət uşaqlar və tərbiyəçi-müəllim arasında kommunukativliyin, qarşılıqlı anlaşmanın və qarşılıqlı təsirin təşkili, hərtərəfli qurulması prosesidir. Düzgün təşkil olunmayan pedaqoji ünsiyyət uşaqlarda həyəcan, qeyri-əminlik yaradır, kollektivin əməkdaşlarında isə iş qabiliyyətini aşağı endirir, davranışda gərginliyə səbəb olur.

2.Tərbiyəçi-müəllimin pedaqoji ünsiyyətinin əsasını məktəbəqədər yaşlı uşaqlarla təlim və tərbiyə prosesində həyata keçirdiyi peşə ünsiyyəti təşkiledir. Bu fəaliyyət prosesində pedaqoji ünsiyyət özündə qarşılıqlı təsiri, tərbiyəçi-uşaq münasibətlərini, uşaqlarda qarşılıqlı əlaqə nəticəsində yaranan sosial-psixoloji inkişafı nümayiş etdirir və hərtərəfli inkişaf etmiş şəxsiyyətin formalaşması üçün zəmin yaradır.

3.Təlim-tərbiyə prosesinin səmərəliliyi pedaqoji ünsiyyətin mahiyyətindən asılı olaraq dəyişir. Bu baxımdan pedaqoji ünsiyyətin emosional rahatlıq, qəlb sakitliyi gətirməsi və dəstəkləyici, öyrədici olması zəruridir. Tərbiyəçi-müəllim bu prosesin təşkilatçısı rolunu ifa edərək, pedaqoji ünsiyyəti idarə edir. Onun uşaqlarla ünsiyyəti fasiləsiz, sistemli, ardıcıl və yaradıcı olur. Bunun üçün onun hər yaş dövrünün inkişaf xüsusiyyətlərini, ünsiyyətə olan tələbatlarını dərindən bilməsivacibdir. Tərbiyəçinin uşaqlar haqqında məlumat əldə etməsi üçün müasir psixologiyanın tədqiqat metodlarından, xüsusilə müşahidə və müsahibə metodundan istifadə etməsi məqsədəuyğundur. Kiçik yaşlı uşaqlarla ünsiyyətin xarakteri daha mülayim, böyük yaşlı uşaqlarla isə daha həssas forma daşıyır.

4. Tədqiqat prosesində məktəbəqədər təhsil müəssisəsində peda-

qoji ünsiyyətin əsas əlamətlərinin bunlardan ibarət olduğu müəyyənləşdirilmişdir:

- məşğələlərdə və məşğələdənkənar vaxtlarda tərbiyəçi-müəllimin uşaqlarla peşəkar ünsiyyəti;
- pedaqoji ünsiyyətin müəyyən funksiyalara malik olması ilə müəssisədə əlverişli ab-havanın yaranması;
- pedaqoji ünsiyyətin təlim-tərbiyə prosesinə, böyüklərin kiçiklərlə münasibətinə, uşaqların yaşıdları ilə qarşılıqlı anlaşmasına psixoloji optimallaşma baxımından yönəlməsi.

5. Uşaqlarla ünsiyyət zamanı tərbiyəçi-müəllimin aşagıdakı yollardan istifadə etməsi zəruri amillərdən birini təşkil edir:

- bir başa pedaqoji təsir. Bu təsir uşaqlara yönəlir və onların davranışına, qarşılıqlı münasbətlərinə, yəni izahına, göstərişlərinə, rəğbətinə, məzəmmətinə təsir göstərir.
- başqalarının vasitəsi iləhəyata keçən dolayısı yolla pedaqoji təsir. Yəni tərbiyəçi-müəllim heç bir maneə törətmədən, göstəriş vermədən şəraiti elə dəyişir ki, uşaqlar lazım olan fəaliyyət formasını seçirlər.

6. Uşaqlarla oyun prosesində pedaqoji ünsiyyət daha səmərəli nəticə verir. Oyun zamanı pedaqoji ünsiyyətin məzmunu və forması əhəmiyyətli dərəcədə tərbiyəçinin qarşıya qoyduğu vəzifələrdən, onların həllindən və uşaqların fəaliyyətinə rəhbərlik etməsindən asılıdır. Məktəbəqədər yaşlı uşaqlarla dolayı yolla pedaqojiünsiyyət oyun vasitəsilə həyata keçirilir. Bu prosesdə tərbiyəçi-müəllim təzyiq göstərmədən onların fəaliyyətini istənilən istiqamətə, inkişafa yönəldir, münasibətləri nizamlayır və münaqişələri həll edir.

7. Düzgün təşkil edilmiş pedaqoji ünsiyyət məktəbəqədər yaşlı uşaqların yaradıcı fəallığının inkişafı üçün əlverişli şərait yaradır. Bu prosesdə şəxsi işgüzar ünsiyyətin potensialı daha böyükdür. Belə ki, işgüzar oyun prosesində onların əməkdaşlığı, bir-birinin sevincinə, kədərinə şərik olmaq, qaşılıqlı anlaşma təmin olunaraq birgə yaradıcılıq atmosferi yaradır. Uşaqlar üçün tərbiyəçi-müəllimin demokratik ünsiyyət tərziseçməsi daha uğurlu nəticələr verir.

8. Məktəbəqədər yaşdövründə uşaqlardabir sıra sosial, psixoloji, fizioloji dəyişikliklər baş verir. Aparılan tədqiqat nəticələri göstərdi ki,təlim-tərbiyə prosesində tərbiyəçi-müəllimlər məktəbəqədər yaş

dövrünün bu xüsusiyyətlərini nəzərə almadıqda böhran, ən azı konflikt qaçılmaz olur. Nəticədə təlim-tərbiyənin keyfiyyəti aşağı düşür, tərbiyəçi-uşaqünsiyyətinə təsir göstərir və bunun nəticəsində uşaq şəxsiyyəti neqativ istiqamətdə inkişaf edir.

9. Müşahidələr və aparılan eksperiment göstərdi ki, səmərəli təşkil olunmuş pedaqoji ünsiyyət pedaqoji fəaliyyətdə tərbiyəçi-uşaq arasında psixoloji kontakt yaradır. Bu kontakt müxtəlif psixoloji maneələri aradan qaldırır, əməkdaşlığa alışdırır və onları pedaqoji prosesin subyektinə çevirir.

10. Pedaqoji prosesdə əksər hallarda qarışıq ünsiyyət tərzləri ilə rastlaşırıq. Bəzən avtoritar ünsiyyət tərzinin də priyomları kifayət qədər təsiredici olur. Lakin buna baxmayaraq tərbiyəçi-müəllimin demokratik ünsiyyət tərzinə daha çox önəm verilir. Çünki bu ünsiyyət tərzi qarşıya qoyduğumuz məqsədin – uşaqların şəxsiyyət kimi formalaşmasına əhəmiyyətli dərəcədə müsbət təsir göstərir.

11. Uşaqların qrupda bərabər çalışması, işləməsi, həm yaşıdları, həm də böyüklərlə əməkdaşlıq edə bilməsi onların gələcək həyatlarında cəmiyyətin digər üzvləri ilə də uğurlu ictimai münasibətlər qurması, öz həyatlarını təşkil edə bilməsinin təməlini qoyur.

12. Tərbiyəçi-müəllimin şəxsi nümunəsi uşaqların təfəkkürünü və idraki qabiliyyətini inkişaf etdirir, şəxsiyyətlərini formalaşdırır. Uşaq şəxsiyyətinin formalaşmasında onun peşə səviyyəsi ilə eyni dərəcədə şəxsi keyfiyyətləri müstəsna rol oynayır. Tərbiyəçi-müəllimin şəxsiyyəti uşaq şəxsiyyətinin formalaşmasında xüsusi əhəmiyyət kəsb edir. Təlim-tərbiyə prosesində tərbiyəçi-müəllim özündə formalaşdırdığı davranış modelini, sosial norma və mədəni dəyərləri əyani nümayiş etdirməklə uşaqların şəxsiyyət kimi təşəkkül tapmasına təsir göstərir.

13. Pedaqoji ünsiyyətin mühüm elementi olan uşaq şəxsiyyətinə pozitiv münasibət pedaqoji praktikada psixoloji nöqteyi-nəzərdən "subyekt-obyekt" sistemindən "subyekt-subyekt" sisteminə keçilməsi ilə əlaqədardır.

14. Tərbiyəçi-uşaq ünsiyyətinə bir sıra amillər: tərbiyəçinin xarici görkəmi,nitqi, uşaqlarla səmimi, mehriban münasibəti təsir göstərir. Tərbiyəçi-müəllimin peşəsini sevməsi də uşaqlarla ünsiyyət qura bilməsində mühüm rol oynayır.

15. Uşaqların inkişafının təmin edilməsində valideynlərlə tərbiyəçi-müəllimlərin birgə fəaliyyətiüzrə aparılan iş səmərəli nəticə verir. Bu məqsədlə valideynlərin pedaqoji biliklərinin artırılması üçün forma və metodların işlənilməsi, tətbiqi zəruridir.

Alınan nəticələr aşağıdakı təklifləri irəli sürməyə imkan verir:

1. Emosional diskomfort şəraitinə düşmüş uşaqlarla tərbiyəçi-müəllimin pedaqoji ünsiyyəti xüsusi spesifik xarakterə malik olduğundanonun öyrənilməsi və xüsusi tədqiqatların aparılması.

2. Ailədaxili münasibətlərin uşaqlarda ünsiyyət mədəniyyətinin formalaşmasına təsir mexanizminin öyrənilməsi və tədqiq edilməsi.

3.Məktəbəqədər təhsil müəssisələrində tərbiyəçi-uşaq, tərbiyəçi-valideyn, rəhbərlik-tərbiyəçi və uşaq-uşaq ünsiyyətinin formalaşdırılmasına yeni müstəvidən yanaşılması.

4. Uşaqların rəğbətləndirilməsi, onlarla ünsiyyətin dialoji formada qurulması, uşaq şəxsiyyətinə hörmətlə yanaşılması ilə ünsiyyətin uşaqların tərbiyəsi və inkişafına müsbət təsirinin artırılması.

5. Məktəbəqədər təhsil müəssisələrində pedaqoji ünsiyyətin demokratik üslubunun inkişaf etdirilməsi, uşaqların bir-biri ilə səmimi ünsiyyətdə olmalarına şəraitin yaradılması və ünsiyyətin praktik fəaliyyətə keçməsinə nail olunması.

6. Azərbaycan Respublikasında məktəbəqədər təhsil proqramı (kurikulumu) üzrə təlimlərin təşkil edilməsində pedaqoji ünsiyyət probleminə geniş yer verilməsi, bu sahədə tərbiyəçi-müəllimlərin maarifləndirilməsi və məktəbəqdər təhsil müəssisələrində kurikulumun tətbiqinin genişləndirilməsi.

**Dissertasiyanın əsas məzmunu aşağıdakı elmi məqalələrdə əks olunmuşdur:**


1. Şəxsiyyətin sosiallaşma amilləri //Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu. "Azərbaycan təhsilində strateji hədəflər" mövzusunda Respublika elmi konfransının materialları. Bakı, 16 dekabr 2015, s.32-33.

2. Pedaqoji ünsiyyətin xüsusiyyətləri //Azərbaycan Respublikası Təhsil Nazirliyi. Doktorantların və gənc tədqiqatçıların XXI Respublika elmi konfransının materialları. I hissə, Azərbaycan Neft və Sənaye Universiteti. 24-25 may 2016-cı il, s. 333-335

3. Məktəbəqədər yaşlı uşaqlardamədəni davranış, ünsiyyət və fəaliyyətin tərbiyə edilməsinin vəzifə və məzmunu //Azərbaycan Respublikası Təhsil Nazirliyi. Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu. Naxçıvan Dövlət Universiteti. Azərbaycanda təhsil siyasətinin prioritetləri: Müasir yanaşmalar. Beynəlxalq elmi konfransının materialları. Naxçıvan şəhəri, 25 noyabr 2016-cı il, s.109-110.

4. Pedaqoji ünsiyyət prosesində uşaq şəxsiyyətinə təsirin əsas istiqamətləri 2016-cı il//Azərbaycan Respublikası Təhsil Nazirliyi. Doktorantların və gənc tədqiqatçıların XXI Respublika elmi konfransının materialları. I hissə, Bakı Dövlət Universiteti, 24-25 oktyabr 2017-ci il, s. 227-229

5. Uşaq şəxsiyyətinin formalaşmasında tərbiyəçi-uşaq münasibətlərinin gözlənilməsi //Pedaqoji Universitetin xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası. ISSN 2520-2014. Bakı, 2019, c.67, № 4, s.276-281.

6. «Влияние взаимоотношений воспитателя и ребенка на учебную деятельность ребенка». Науковий журнал «Інноваційна педагогіка». Випуск 8, Одеса 2018, с. 66-69.

7. Pedaqoji prosesdə tərbiyəçinin pedaqoji mərifəti onun pedaqoji ustalığının əsasını təşkil edir // Bakı Qızlar Universiteti. Elmi əsərlər. Cild 10, № 2, 2019 (38), s.259-263.

8. Pedaqoji ünsiyyət prosesində məktəbəqədər yaşlı uşaqların şəxsiyyətinin formalaşmasının imkan və yolları //Azərbaycan Respublikasının Təhsil İnstitutu. Elmi əsərlər. Bakı, 2019, cild 86 №4, s.80-83.

9.Təlim-tərbiyə işinin səmərəliliyində tərbiyəçi-uşaq ünsiyyətinin rolu // Məktəbəqədər və ibtidai təhsil. Bakı, 2019, №4, 95-101.

10. Məktəbəqədər yaşlı uşaqların peşələrlə tanış edilməsinin yolları// Peşə təhsili və insan kapitalı. Elmi-praktiki, metodiki jurnal. Cild 2, №4, 2019, s.81-85 (Şərikli).

11. «Сущность и содержание педагогического общения и постановка проблемы в научно-педагогической и методической литературе». Современнаянаука. Серия: Гуманитарныенауки. Москва, 2021, №11/2, ст. 79-84.

12.Cooperation of the preschool educational institution with the family in the education of children of preschool ace //II international scientific-practical conference: “Multidisciplinary Research: Pers-

pectives, Problems and Musters”// November 26, 2021-Vienna, AUT.p.13-16.

13. The formation of the need for emotional communication from an early age // Proceedings of the 13th International Scientific and Practical Conference «Scientific Research in XXI Century» // December 6-8, 2022- Ottawa, Canada. №135.90-93.

14. Competency-based in child communicative development the role of approach // Proceedings of the 4th International Scientific and Practical Conference «Scientific Paradigm in the Context of Technologies and Society Development» // December 16-18, 2022. Geneva, Switzerland. №136, p.106-112.

15. Педагогический процесс общенияв дошкольных образовательных учреждениях: опыт Азербайджанской Республики // Вестник Московского Университета. Серия 20. Педагогическое образование. 2023.Т.21, №3. с.150-164.

Dissertasiyanın müdafiəsi 29 yanvar 2024-cü il tarixində saat $14^{00}$-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1000, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 68

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana-İnformasiya Mərkəzində tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Pedaqoji Universitetinin rəsmi internet saytında yerləş-dirilmişdir.

Avtoreferat 26 dekabr 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 22.12.2023
Kağızın formatı: $60x84^{1/16}$
Həcm: 39355
Tiraj: 100